BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaFix® RS-1

Sürətli bərkimə xassəli axıcı qrout dolgu qarışımı

## TƏSVİR

SikaFix® RS-1, tək komponentli, sement polimer tərkibli, axıcı, sürətlə müqavimət yığan, tez qurumalı qrout dolğu materialı.

## İSTİFADƏ YERLƏRİ

- Kanalizasiya qapaqlarının altlıqlarının sabitlənməsində
- Yol nişanlarının sabitlənməsində
- Beton ankoraj bərkitmə tətbiqlərində
- Qeyri -struktur boşluq, girintilərin doldurulmasında
- Küçə mebellərinin montajında

## ÜSTÜNLÜKLƏRİ

- Asan qarışdırma və tətbiq
- Yaxçı axıcılıq xassəli olması
- Qısa müddətdə bərkimə və müqavimət toplaması
- Tənzimlənən tutarlılıq

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

EN 1504-3 standardının tələblərini qarşılayır
AZS 039-2000

## MATERIAL MƏLUMATI

| | | |
|---|---|---|
| **Kimyəvi əsası** | Xüsusi sement, seçilmiş aqreqat dolğu və əlavələr. | |
| **Qablaşdırma** | 25 kg torba | |
| **Rəng** | Boz toz | |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 6 ay. | |
| **Saxlama Şərtləri** | Məhsul orijinal, açılmamış və zədələnməmiş, möhürlənmiş qablaşdırmada quru şəraitdə +5 °C ilə +30 °C arasında olan temperaturda saxlanmalıdır. | |
| **Sıxlığı** | 2.10 ± 0.10 kg/lt (təzə məhlul)<br>1.50 ± 0.05 kg/lt (toz) | |
| **Maksimum dənəcik ölçüsü** | $D_{max}$: 3 mm | (EN 12190-1) |

## TEXNİKİ MƏLUMATLAR

| | | | |
|---|---|---|---|
| **Sıxılma müqaviməti** | **1 saat** | **28 günlük** | (EN 196-1) |
| | ~15 mPa | ~55 mPa | |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Qarışdırma nisbəti** | 4.25 – 4.75 lt su (Su / Toz nisbəti 0.17 – 0.19) |
| **Ətraf mühit temperaturu** | Min. +5°C/ Maks. +30°C. |
| **Səthin temperaturu** | Min. +5°C/ Maks. +30°C. |
| **İstifadə müddəti** | ~ 3 - 6 dəqiqə, ətraf mühit temperaturundan asılı olaraq , qarışdırmadan dərhal sonra istifadə tövsiyyə olunur. |
| **Kürlənmə müddəti** | Görünən,açıq səthini mümkün qədər kiçik saxlayın və müvafiq tədbirlərlə (nəm saxlamaq, yaş keçə ilə örtmə və s.) vaxtından əvvəl qurumadan qoruyun. Soyuq havalarda istilik yorğanları tətbiq edin və ya sabit bir temperatur saxlamaq üçün digər tədbirlər görülməlidir. |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Yüksək temperatur tətbiqləri zamanı istifadə müddəti azalır; aşağı temperaturlarda bərkimə vaxtı artır.
- Havanın temperaturundan asılı olaraq SikaFix® RS-1 10 dəqiqə ərzində bərkiyir.  Bərkimə müddəti laboratoriya şəraitində (20±2°C) hesablanmışdır. .
- Minimum bölmə eni 10 mm-dir.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### SƏTHİN KEYFİYYƏTİ

**Beton, şap, daş**: Səthlər sağlam, təmiz, buzdan, yağlardan, çirkləndiricilərdən, su yığıntısından və hər hansı boş və ya kövrək hissəciklərdən, digər səth çirkləndiricilərindən təmiz olmalıdır. Betonun “çəkilmə” (dartılma) gücü > 1,0 MPa olmalıdır.
**Metal, Dəmir**: Təmiz, yağ və çirkləndiricilərdən, digər qalıqlardan və paslanmadan arındırılmış olmalıdır.

### SƏTH HAZIRLIĞI

Tətbiqə başlandığında, suya doymuş quru səth şərtini təmin etmək üçün beton altlıqlar 2 - 6 saat öncədən təmiz su ilə nəmləndirilməlidir.

### QARIŞDIRMA

Su/toz nisbətini 0,17-0,19 saxlamaq üçün 25 kq toz material üçün 4,25- 4,75 lt su istifadə edilərək qarışdırılmalıdır. Aşağı sürətli elekrikli qarışdırıcıdan istifadə edərək, yek cins, topaqsız, axıcı qarışım əldə edənədək 3 dəqiqə ərzində qarışdırılmalı və dərhal dolğu tətbiqi edilməlidir.

### AVADANLIQ TƏMİZLİYİ

İstifadədən dərhal sonra bütün alətləri və tətbiq avadanlıqlarını su ilə təmizləyin. Sərtləşmiş/bərkimiş material yalnız mexaniki yolla çıxarıla bilər.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12